*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2026*
*Səh. 378-384*

https://doi.org/10.62837/2026.5.378

**ABDULLAYEVA YEGANƏ**
**Azərbaycan Dillər Universiteti**
**Dünya ədəbiyyatı və nəzəriyyəsi kafedrası**
**y.abdullayeva68@gmail.com**

# HOVARD BARKERIN PYESLƏRINDƏ ANAXRONIZM: TARIXIN DEKONSTRUKSIYASI

**Xülasə.** Əsərləri travma, yaddaş və tamaşaçı qavrayışı baxımından araşdırılan britaniyalı dramaturq Hovard Barkerin pyesləri "Fəlakət Teatrı" anlayışına aydınlıq gətirir. Keçmişi və tarixi şəxsiyyətləri müasir reallıq kontekstində səhnəyə qoyan Hovard Barker universal fəlakətin mənzərəsini yaradır. Onun "Qələbə: reaksiya seçimləri" və "Qəsr" kimi pyeslərində keçmişin travmaları indiki zamanda üzə çıxır. Dramaturqun pyeslərində anaxronizm və tarixin dekonstruksiyası məsələlərini təhlil edərkən aydın olur ki, müəllif tarixin statik faktlar toplusu olmadığını, indiki dövrün problemləri ilə bir addımladığını nümayiş etdirir. Hovard Barkerin pyeslərində anaxronizm insan faciəsinin zamansız olduğunu və tarixin donmuş bir model olmadığını, təkrarlanan "fəlakətlərin" davamı olduğunu göstərir.

**Açar sözlər:** Hovard Barker, pyes, anaxronizm, tarix, dekonstruksiya

**Giriş.** Müasir Britaniya dramaturgu Hovard Barker (Howard Barker, 1946) "Fəlakət Teatrı" (Theatre of Catastrophe) konsepsiyası ilə klassik dramın sərhədlərini pozaraq onu yeni müstəviə keçirmişdir. H.Barkerin yaradıcılığında tarix sadəcə keçmiş deyil, insan ruhunun sınağa çəkildiyi bir meydandır. Bu meydanın aləti isə anaxronizmdir. H.Barker üçün anaxronizm tarixin dekonstruksiyası, şüurlu dəyişikliyidir. O, pyeslərində tarixi xronologiyanı dağıdır və problemləri keçmişin hadisələrinə daxil edir. Beləcə, o, tarixi keçmişdə qalmış hadisə ilə deyil, insan faciəsinin zamansızlığı ilə üz-üzə qoyur. H.Barker teatrında keçmiş, indi və gələcək bir-birinə nüfuz edərək universal bir fəlakətin mənzərəsini yaradır.

H.Barkerin pyeslərini araşdıran Devid Yan Rabey qeyd edir ki, dramatuq tarixin qaranlıqlarından insanın qadağan olunmuş arzularını və fərdi üsyanını üzə çıxarır, keçmişlə bu günün bağlarını göstərir [9]. "Hovard Barker: Vəcd Teatrı" (Howard Barker: Ecstatic Theatre) kitabında isə yazır ki, dramaturqa görə tarix sadəcə bir estetik sahədir və elə bu səbəbdən tarixi personajların ənənəvi qəhrəmanlıq funksiyasını dəyişir: "Barkerin tarixi nəyin baş verdiyinin qeydi deyil, insanın mübarizəsində nəyin sabit qaldığının sorğulanmasıdır" [10]. Çarlz Lambriz isə H.Barker yaradıcılığını postmodernist dramaturgiya və dil fəlsəfəsindən araşdırır. Ç. Lambriz qeyd edir ki, H.Barker üçün tarix baş vermiş hadisələrdən daha çox yazılmış mətnlər toplusudur. O, pyeslərində bu mətnləri dekonstruksiya edir. Ç.Lambriz

H.Barkerin "Qəsr" (The Castle) pyesini təhlil edir və belə qənaətə gəlir ki, Barker qəsrin divarlarında orta əsrləri, düşüncədə isə XX əsrin nüvə fəlakətini birləşdirir [8].

Karolina Ueykin yanaşması da maraq doğurur. O, H.Barker yaradıcılığını travma, yaddaş və tamaşaçı qavrayışında araşdırır. K. Ueyk qeyd edir ki, H. Barkerin pyeslərində tarix məlumat müstəvisindən çıxır, təcrübə kimi görünür. Tənqidçi H. Barkerin pyeslərində tamaşaçını izləyicidən daha çox, hadisənin şahidliyinə məcbur etdiyini göstərir. "Qəsr" pyesində nüvə ritorikası tamaşaçıda bir etik məsuliyyət yaradır. K.Ueykə görə, dramaturq keçmişin travmasını indiki zamana köçürür və sübut edir ki, biz keçmişi tam anlaya bilmərik, çünki onu indiki zamanın süzgəcindən keçiririk [11].

H.Barker yaradıcılığı yuxarıda qeyd edilən tədqiqatçılar tərəfindən geniş öyrənilsə də, onun pyeslərindəki anaxronizm məsələsi çox vaxt "Fəlakət Teatrı"nın ümumi bir elementi kimi göstərilir. Azərbaycan ədəbiyyatşünaslığında H. Barkerin yaradıcılığı, xüsusən də tarixin dekonstruksiyası kontekstində anaxronizm problemi tədqiqat obyektinə çevrilməmişdir. Belə ki, H.Barkerin pyeslərində tarix postmodern üslubda öyrənilmişdir, lakin anaxronizm – şüurlu dəyişiklik müstəvisində tədqiqata cəlb edilməmişdir.

**Tədqiqatın məqsədi** H.Barkerin pyeslərində anaxronizmin funksional xüsusiyyətlərini və onun tarixin dekonstruksiyası müstəvisində rolunu müəyyən etməkdir. Tədqiqatın **vəzifələri** H.Barkerin "Fəlakət Teatrı" konsepsiyasında tarix anlayışını təhlil etmək; pyeslərdə dil və məkan arasındakı anaxronik ziddiyyətləri aşkara çıxarmaq; anaxronizmin tamaşaçı qavrayışına və "yadlaşma effekti"nə təsirini araşdırmaq; konkret pyeslərin nümunəsində tarixin dekonstruksiyasını göstərmək.

Qeyd etməliyik ki, H.Barkerin pyeslərində tətbiq etdiyi anaxronizm strategiyası onun tamaşaçı konsepsiyası ilə sıx bağlıdır. Belə ki, o, tamaşaçını passiv izləyici olmasına qarşı çıxır. H.Barkerin fikrincə, tarixin dekonstruksiyası tamaşaçını tarixi illüziyadan ayırmalı və onu pyesin mürəkkəb sualları ilə tək qoymalıdır. Elə bu səbəbdən H.Barker hər bir tamaşaçını pyesi fərqli şəkildə anlamasını istəyir: "Auditoriyanı parçalamaq istəyirəm. İstəyirəm ki, onlar teatrdan özləri ilə mübahisə edərək çıxıb getsinlər" [3, s. 161].

İngiltərənin Bərpa dövründən bəhs edən "Qələbə: reaksiya seçimləri" (Victory: Choices in Reaction, 1983) [2] pyesində H.Barker anaxronizmi ilk növbədə dildə tətbiq edir. Personajlar Stüartlar sülaləsinin geyimində olsalar da, onların dili XX əsrin sərt jarqonları, siyasi terminləri ilə zəngindir. H.Barker burada tarixin kanonlaşmasına qarşı çıxır. XVII əsrin qadını Bredin dilindəki müasir ifadələr onu keçmişin donmuş obrazından çıxarıb, ağrı və ehtiyac hiss edən müasir tamaşaçının həmfikrinə çevirir. H.Barker tarixi hadisələri dəyişməklə onun xronologiyasını deyil, tarixin "nəzakətli" keçmiş anlayışını dağıdır.

Hadisələr kralın edamından sonra hakimiyyətə gələn II Karlın dövründə, respublikaçıların təqib olunduğu illərdə cərəyan edir. Lakin H.Barker tarixi faktları

bərpa etmir, əksinə, onları dağıtmağı gerçəkləşdirir. Valter Benyamin “Tarix fəlsəfəsi üzrə tezislər” (Theses on the Philosophy of History) əsərində yazır ki, tarix qaliblər tərəfindən yazılır və keçmişi ifadə etmək “əslində onu olduğu kimi” tanımaq deyil [4]. H.Barker də pyesdə elə bu fikri ifadə edir. O, qalib gəlmiş monarxistlərin möhtəşəmliyini deyil, məğlub olmuş respublikaçıların, xüsusən də, baş qəhrəman Bredin ağrısını və alçalmasını önə çəkir. Pyesdə ölmüş respublikaçının cəsədinin parçalanması və şəhər boyu yayılması hadisəsi tarixin qisasçı mahiyyətini göstərir.

Pyesin ən kəskin tərəfi XVII əsrin mühitində personajların müasir, çox vaxt vulgar və jarqon ifadələrlə danışmasıdır. Mişel Fuko “Dil, əks-yaddaş, təcrübə” (Language, counter-memory, practice) əsərində vurğulayır ki, dil sosial məhdudiyyətlər, qaydalar və güc münasibətləri sistemində iştirak etdikdə “diskursa” çevrilir. Diskursiv təcrübə də, elə hakimiyyətin gücüdür [6]. H.Barkerdə isə dil hakimiyyətə qarşı üsyandır. Bredin monarxistlərin əhatəsində dediyi bu sözlər dilin anaxronik gücünü göstərir: “Sizin kübarlığınıza təəccüblənmirəm. Sizin üslubunuz sadəcə çəkmələrinizdəki qanı gizlətməyin bir yoludur” [2, s.31]. Göründüyü kimi buradakı üslub sözü anaxronikdir. Dramaturq personajın diliylə müasir tamaşaçıya müraciət edir və bu fikri irəli sürür: hakimiyyət həmişə öz çirkin siyasətini etiket arxasında gizlədir.

Pyesin adı təsadüfi seçilməyib. Bred ərinin cəsədinin hissələrini toplamaq üçün monarxistlərin alçaldıcı təkliflərinə “hə” deyir. Jan-Pol Sartr “Ekzistensializm – humanizmdir” essesində yazır ki, “hər kəsin istədiyi kimi davranmasına icazə verilir və heç kim başqalarının fikirlərini və hərəkətlərini mühakimə edə bilməz… insan həmişə dəyişən bir situasiya ilə üz-üzədir və seçim həmişə situasiyada seçim olaraq qalır” [13]. H.Barker Bredin nümunəsində sübut edir ki, ən dəhşətli şəraitdə belə insanın seçimi var, lakin bu seçim mütləq “əxlaqlı” olmaq məcburiyyətində deyil: “Mən prinsipləri olmayan bir qadınam. Mənim sadəcə məqsədim var” [2, s.45]. H.Barker ənənəvi dramın qəhrəman modelini dağıdır. Bred cəsədi toplamaq üçün ləyaqətini qurban verir. Bu dramaturqun “Fəlakət Teatrı” konsepsiyasındakı “əzabın estetikası” prinsipi ilə paralellik təşkil edir. Bredin ərinin cəsədi bölünərək xalqın gözü qarşısında nümayiş etdirilir və şəhərin müxtəlif yerlərinə asılır. Bred ərinin bədən hissələrini toplamaq və onu dəfn etmək üçün alçaldıcı davranışlara səssiz qalır. Pyesin adındakı “Qələbə” sözü müəllif istehzasıdır. Qələbə Bredin daxili gücündədir. Bred kralın ətrafındakı mənəviyyatsız, zorakı və qəddar saray mühitinə daxil olur. O, sağ qalmaq və məqsədinə çatmaq üçün təhqirlərə dözür. Onun qələbəsi hər kəsin mənəviyyatının itdiyi bir vaxtda, öz seçiminə sadiq qalmasıdır. H.Barker göstərir ki, ən böyük qələbə insan iradəsi və seçimidir.

II Karl pyesdə monarxdan çox, müasir və kinli bir siyasətçi kimi təsvir olunur. O, öz hakimiyyətinin bir teatr olduğunu bilir. Gi Debor hesab edir ki, müasir dünyada hər şey tamaşaya çevrilib və elə bu səbəbdən o, “tamaşa cəmiyyəti” anlayışını irəli sürür: “müasir cəmiyyətdə həyat nəhəng bir tamaşa kimi təqdim olunur. Birbaşa

yaşanan hər şey reprezentasiyaya çevrilir" [5, s.2]. H.Barker pyesdəki anaxronizmlə II Karlın sarayını müasir şou mühitinə bənzədir. Karl əyanlara müracət edir və deyir: "Dünya Tanrının bizimlə oynadığı bir zarafatdır. Mən sadəcə o zarafatdakı söz sahibiyəm" [1, s.200].

Pyesdə anaxronizm təkcə dildə deyil, həm də ideyalarda özünü büruzə verir. H. Barker sübut edir ki, tarix təkrarlanmır, o, eyni ağrını fərqli görüntülərdə göstərir. Görünür elə bu səbədən dramaturq XVII əsr İngiltərəsinin ideal görüntüsünü dağıdır və real durumunu göstərir. Pyesin sonunda Bredin gəldiyi nəticə müasir insanın Panoptikon (Mişel Fuko) [14] qarşısındakı vəziyyətini xatırladır: "Sağ qalmaq bizə qalan tək qələbədir" [1, s.248]. Göründüyü kimi, "Qələbə: reaksiya seçimləri" pyesi insan mövcudluğunun ən dərin qatlarını araşdıran anaxronizm kimi təqdim edilir.

"Qəsr" (The Castle, 1985) pyesində isə səlib yürüşündən qayıdan cəngavərlər özləri ilə nəhəng bir Qəsr tikmək üçün mühəndis gətirirlər. Lakin pyesdəki müdafiə sistemləri haqqında müzakirələr nüvə silahı və soyuq müharibə dövrünün ritorikasını xatırladır. Orta əsr kəndində raket poliqonlarını və müasir həbsxana sistemlərini xatırladan Qəsrin inşası tarixin təkrarlanması ideyasını irəli sürür. Dramaturq anaxronizmlə göstərir ki, hakimiyyətin zorakılıq ideyası, istər qəsrin divarı, istər nüvə başlığı olsun dəyişməzdir. H.Barker tarixi hadisələrdən istifadə edərək müasir dövrün texnoloji hərc-mərcliyini, hərbi sənayedəki münaqişələri dekonstruksiya edir. Dramaturq hesab edir ki, tamaşaçı keçmişi bir nağıl kimi qəbul etməməlidir: "Tarixi" iddia edən pyes çox vaxt tamaşaçını rahatlatmaq üçün qurulmuş bir sui-qəsddir. O deyir: "Bu o zaman baş verib və bitib". Fəlakt Teatrı isə deyir: "Bu indi, sənin içində baş verir və heç vaxt bitməyəcək" [3, s.54].

Pyes səlib yürüşündən yeddi il sonra evinə dönən Stukli və mühəndis Krastın qayıtması ilə başlayır. Onlar qayıdarkən özləri ilə nəhəng bir Qəsrin planını gətirirlər. Martin Haydegger "Texnologiya ilə bağlı sual və digər esselər" (The Question Concerning Technology and Other Essays) əsərində qeyd edir ki, texnologiya sadəcə alət deyil, dünyanı bir "çərçivə" kimi görmə üsulu, təbiəti və insanları resursların inventarına çevirən bir dünyagörüşüdür [7]. Pyesdəki mühəndis Krast M.Haydeggerin təsvir etdiyi texnoloji insanın əksidir. Onun üçün kəndin mənzərəsi və insanların ağrı və hissləri yoxdur. Yalnız qəsrin statik gücü və riyazi dəqiqliyi var. M.Haydeggerə görə, müasir texnologiya insanların dünyanı qavraması üçün bir yol, istifadəyə hazır olan resursdur. H.Barker orta əsrlərə mühəndis zehniyyətini gətirməklə texnologiyanın zamansızlığını göstərir. Krastın qəsr haqqında dediyi sözlər bu səbəbdən qorxunc insan düşüncələrini ifadə edir: "Qəsr ev deyil. O, bir düşüncə tərzidir. O, qorxunun riyaziyyatıdır" [1, s.230].

Pyesin baş qəhrəmanı və Stuklinin arvadı Enn M.Haydeggerin "çərçivə"sindən qorxur. Stukli geri qayıdıb nəhəng, keçilməz bir Qəsr tikməyə başlayanda, Enn onu qoruma yerindən daha çox, həbsxana kimi görür. Onun üçün Qəsr qorxunun simvoludur. O, hərbi texnologiyanın insanın mahiyyətini məhv etdiyinə inanır. Qəsr

tikildikcə kəndin azadlığı yoxa çıxır. Qəsr hər şeyi görən, lakin özü əlçatmaz olan mütləq hakimiyyəti simvolizə edir. Mişel Fuko "İntizam və cəza: Həbsxananın doğuşu" (Discipline and Punish: The Birth of the Prison) əsərində Panoptikon modelini irəli sürür [14]. Düşünürük ki, H.Barkerin "Qəsr"i onun təcəssümüdür. Qəsr M.Fukonun təsvir etdiyi mərkəzi qüllədir. Hər kəsi nəzarət altında saxlayan görünməz sistemdir. H.Barker anaxronizm vasitəsilə orta əsr qəsrini radar sistemləri və nüvə bunkerləri ilə eyniləşdirir. Pyesin ən diqqət çəkən xətlərindən biri Qəsrin mühəndisi Krastla Ennin qarşıdurmasıdır. Krast rəqəmlərə və daşlara, Enn isə insan ağlına və hisslərinə inanır. O, Krastun "parlaq" yaradıcılığını inkar etməklə onu "tərksilah" edir. Beləcə, H.Barker təbiətlə texnokratiya arasındakı münaqişəni təsvir edir.

Pyes 1980-ci illərdə, soyuq müharibənin gərgin vaxtlarında yazılıb. H.Barkerin anaxronizminin ən böyük hədəfi nüvə silahlanması idi. Jan Bodriyar "Simulyakrlar və simulyasiyalar" əsərində deyir ki, nüvə silahı istifadə olunmaq üçün deyil, qorxu yaratmaq üçündür: "Nüvə silahları bütün strateji çəkindirmə vasitələri kimi, istifadə üçün deyil, sadəcə mövcud olmaq, dünyada qorxu və keyliyi qorumaq üçün nəzərdə tutulub" [12, s.54]. H.Barker qəsri elə bir şəkildə təsvir edir ki, o həm sığınacaqdır, həm də qorxu saçan ölüm maşınıdır. Yalnız bu şəkildə Stukli hər kəsi itaətdə saxlaya bilir.

"Qəsr" pyesində tarixin dekonstruksiyası bir neçə qatda baş verir. İlk növbədə orta əsr personajları müasir dövrün dili ilə danışır. Müdafiə və təhlükəsizlik anlayışları əslində insanlığı məhv edən bir həbsxana olduğunu göstərir. Pyesin sonunda hər şeyin məhv olduğu bir mənzərədə H.Barkerin anaxronik mesajına aydınlıq gəlir: "Qəsr hazırdır. Amma baxın, onun kölgəsində yaşayacaq heç kim qalmadı" [1, s.251].

**Nəticə.** Tədqiqat göstərir ki, H.Barker üçün anaxronizm bədii bəzək deyil, tarixin rəsmiyyətini qırmaq üçün bir zərurətdir. Dramatuqr anaxronizmlə tarixi hadisələri indiki zamana köçürür və baş verən davamlı fəlakət kimi göstərir. "Qələbə: reaksiya seçimləri" və "Qəsr" pyeslərinin təhlili göstərir ki, H.Barker keçmişi bu günə köçürməklə insan faciəsinin dəyişməz olduğunu aşkara çıxarır. Beləliklə, H.Barkerin tarixin dekonstruksiyası tamaşaçını passiv izləyicidən fəal mühakiməçiyə çevirir və göstərir ki, tarix keçmişdə qalmır, o anaxronik baxışda bu günümüzə sirayət edir. Tarixin dekonstruksiyası tamaşaçıya hazır bir keçmişin dərsini vermir. Anaxronizm vasitəsilə hər bir tamaşaçı öz şəxsi təcrübəsi ilə pyesdəki tarix arasında fərdi bir əlaqə qurur.

Eyni zamanda H.Barkerin dramaturgiyasında anaxronizm və tarixin dekonstruksiyası məsələlərini təhlil edərkən aydın olur ki, müəllif üçün zaman sadəcə xronoloji bir ardıcıllıq deyil, hakimiyyət və fərd arasındakı əbədi münaqişə səhnəsidir. H.Barkerin "Fəlakət Teatrı" çərçivəsində tətbiq etdiyi anaxronik üsullar onun pyeslərində tarixin donmuş bir faktlar toplusu olmadığını, bu günün ağrıları ilə eyni səsləndiyini ortaya qoyur.

H.Barker tarixi hadisələri dekonstruksiya edərək, onları rəsmi tarixdən təmizləyir. Anaxronizm bu prosesdə bir təsiredici element rolunu oynayır. Keçmişin dekorasiyası tamaşaçını estetik passivlikdən çıxararaq, onu hadisənin mahiyyəti ilə birbaşa dialoqa sövq edir. H.Barkerin anaxronizmi sübut edir ki, insan faciəsi zamansızdır. İstər XVII əsr İngiltərəsində özünü qorumağa çalışan Bred, istərsə də orta əsrlərin qaranlığında Qəsrə qarşı duran Enn əslində müasir insanın sistem qarşısındakı tənhalığını simvolizə edir.

Beləliklə, qeyd etmək olar ki, H.Barkerin pyeslərində anaxronizm müəllif stategiyası olmaqla yanaşı, tarixin donuq modelinin inkarı və hər an təkrarlan "fəlakət"ində davamıdır. Bu dekonstruksiya strategiyası müasir dramaturgiyaya yeni bir baxış bucağı gətirir. Beləliklə, teatr keçmişi təqlid etmir, keçmişdə gizlənən indini aşkar edir.

**Ədəbiyyat:**

1. Barker H. Collected plays. Riverrun Press. 1990. p.197-251.
2. Barker H. Barker: Plays One. Oberon Books. 2006. 288 p.
3. Barker H. Arguments for a Theatre. Oberon Books. 2016. 282 p.
4. Benjamin Walter. Theses on the Philosophy of History. [Elektron resurs]. URL: https://www.sfu.ca/~andrewf/books/Concept_History_Benjamin.pdf
5. Debord G. The Society of the Spectacle. Translation by Ken Knabb 2014. [Elektron resurs]. URL: https://files.libcom.org/files/The%20Society%20-of%20the%20Spectacle%20Annotated%20Edition.pdf
6. Foucault M. Language, counter-memory, practice. Selected Essays and Interviews. Cornell University Press. 1977. 240p.
7. Heidegger M. The Question Concerning Technology and Other Essays. New York & London: Garland and Publishing, INC. 1977. 182p.
8. Lambritch C. The Language of Catastrophe: Howard Barker and Postmodern History. Journal of Contemporary Drama. 2000.
9. Rabey D. Howard Barker: Politics and Desire. London: Macmillan. 1989.
10. Rabey D. Howard Barker: Ecstatic Theatre. London: Palgrave Macmilla. 2009.
11. Wake C. The Sieve and the Silhouette: Witnessing the Past in Howard Barker's Theatre. Performance Paradigm. 2013.
12. Бодрийяр, Ж. Симулякры и симуляции. пер. с фр. А. Качалова. М.: Издательский дом «ПОСТУМ», 2015. 240 с.
13. Сартр, Жан-Поль. Экзистенциализм — это гуманизм. [Elektron resurs]. URL: https://scepsis.net/library/id_545.html
14. Фуко М. Надзирать и наказывать. Рождение тюрьмы / Пер. с фр. В. Наумова под ред. И. Борисовой. М.: Ad Marginem, 1999.

**АБДУЛЛАЕВА Е.**

## АНАХРОНИЗМ В ПЬЕСАХ ГОВАРДА БАРКЕРА: ДЕКОНСТРУКЦИЯ ИСТОРИИ

**РЕЗЮМЕ**

Пьесы британского драматурга Говарда Баркера, чьи произведения изучаются с точки зрения травмы, памяти и восприятия зрителя, проливают свет на концепцию «Театра катастроф». Помещая прошлое и исторические фигуры на сцену в контекст современной реальности, Говард Баркер создает картину всеобщей катастрофы. В его пьесах, таких как «Победа: выбор реакции» и «Замок», травмы прошлого раскрываются в настоящем. Анализируя вопросы анахронизма и деконструкции истории в пьесах драматурга, становится ясно, что автор демонстрирует, что история – это не статичное собрание фактов, а движение в ногу с проблемами настоящего. Анахронизм в пьесах Говарда Баркера показывает, что человеческая трагедия вне времени и что история – это не застывшая модель, а продолжение повторяющихся «катастроф».

**Ключевые слова:** Говард Баркер, пьеса, анахронизм, история, деконструкция

**ABDULLAYEVA YEGANE**

## ANACHRONISM IN HOWARD BARKER'S PLAYS: A DECONSTRUCTION OF HISTORY

**SUMMARY**

The plays of British playwright Howard Barker, whose works are studied in terms of trauma, memory and the audience's perception, shed light on the concept of "Theatre of Catastrophe". By placing the past and historical figures on stage within the context of contemporary reality, Howard Barker creates a picture of universal catastrophe. In his plays, such as "Victory: Choices in Reaction" and "The Castle", the traumas of the past are revealed in the present. By analysing the themes of anachronism and the deconstruction of history in the playwright's works, it becomes clear that the author demonstrates that history is not a static collection of facts, but a process that keeps pace with the problems of the present. Anachronism in Howard Barker's plays shows that human tragedy is timeless and that history is not a static model, but a succession of recurring "catastrophes".

**Keywords:** Howard Barker, play, anachronism, history, deconstruction

**Rəyçi:** **professor Həmidə Əhməd qızı Əliyeva**